Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Uşaq şairləri uşaq kimidir

**Şair Ələmdar Quluzadənin 70 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Uşaq şairləri uşaq kimidir :** Şair Ələmdar Quluzadənin 70 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli; F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, Bakı, 2022.- 35s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

Müasir dövrün indiki mərhələsində xalqımıza kamil, şüurca yetkin insanlar daha çox lazımdır. Belə insanların yetişdirilməsində uşaq ədəbiyyatının misilsiz əhəmiyyəti vardır. Məhz elə buna görə uşaq ədəbiyyatının ideya-bədii səviyyəsinin yüksəldilməsinə həmişə qayğı göstərilmişdir. Uşaq ədəbiyyatı böyüməkdə olan nəslin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Balacaları vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik ruhunda tərbiyə etmək üçün yüksək səviyyəli uşaq əsərlərinin yazılmasına həmişə böyük ehtiyac olub. Həyat hadisələri haqqında uşaqlarda dolğun təsəvvür yaratmaq üçün uşaq ədəbiyyatının mühüm rolu var. Uşaqlar üçün yazılan əsərlərdə müasir dövrün nəbzi tutulmalı, coşqun və qaynar həyatımız öz bədii inikasını tapmalıdır. Bu uşaq yazıçılarını düşündürən aktual problemdir. Uşaqlar üçün yazılan əsərlərin yalnız formasına yox, həm də məzmun və ideya saflığına fkir vermək lazımdır. Bəli, müasir uşaq ədəbiyyatı sahəsində qələmini sınayan şair və yazıçılarımız çoxdur. Belə şairlərdən biri də bu il yubileyinə hazırlaşdığımız uşaqların və böyüklərin sevimlisi şair Ələmdar Quluzadədir. Uşaq ədəbiyyatı Ələmdar Quluzadə yaradıcılığının aparıcı qollarından biridir. Bu da təsadüfi deyil, tale işidir. Uzun illərdir ki, dövlət radiosunun uşaq verilişləri redaksiyasının baş redaktoru kimi səmərəli fəaliyyət göstərən Ələmdar Quluzadənin bu il 70 illik yubileyi qeyd olunur. Bu münasibətlə şair Ələmdar Quluzadə yaradıcılığına bir daha nəzər salaq. Təbiət, məhəbbət, insan, narahat dünya, qanlı-qadalı müharibələr, Qarabağ ağrıları mövzularına nəşr etdirdiyi kitablarla geniş oxucu kütləsinin məhəbbətini qazanan, onların marağına səbəb olan Ələmdar Quluzadə uşaqların da sevimlisidir. Onun qələmə aldığı kitablarda bir-birindən fərqlənən ədəbi qəhrəmanlar var. Bu qəhrəmanları uşaq şairləri və yazıçıları axtarıb tapır və öz

əsərlərinə gətirirlər. Şair bu qəhrəman uşaqları təsvir edərkən onların psixologiyasını qətiyyən yaddan çıxartmır. Ələmdar Quluzadə yaradıcılığının oxucular arasında geniş təbliği üçün hazırladığımız metodiki vəsaiti oxucuların və kitabxanaçıların ixtiyarına veririk. Ümidvarıq ki, metodiki vəsaitdən kitabxanaçılar öz iş təcrübələrində səmərəli şəkildə istifadə edə biləcəklər.

## Bölmə I

Şairlər doğulanda bəlkə də elə şair kimi doğulurlar. Elə fövqəlbəşər qüvvəyə malik olan Yaradan öz vergi payını fitri istedadı da bu yaş dövründə onlara bəxş edir. Lakin bu istedad bəşər övladı uşaqlıq dövrünü keçirən zaman, hansısa bir yaş mərhələsində tədricən üzə çıxır. Onlar şairliyin sehrli və sirli dünyasında poeziyanın sirlərinə bələd olduqca, poetik ixtiralarla misralara sığal çəkdikcə, bədii söz hörgüsünü cilaladıqca, portretli, lirik və mənzərə şəkilli obrazlılıq axtarışında olduqca püxtələşmiş bir şair kimi əbədi mühitdə parlaya bilirlər. Elə şair Ələmdar Quluzadə kimi! Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Ələmdar Quluzadə... Hələ altıncı sinifdə oxuyarkən fövqəlbəşər qüvvəli Yaradanın bəxş etdiyi vergi payı onun qəlbini ehtizaza gətirdi. O, gizlin, uşaqlara xas olan bir tərzdə hələ cilalanmamış misralarını bir-birinin ardınca sıraladı, özünü nə vaxtsa ədəbi mühitdə-poetik aləmdə görmək arzusu ilə yaşadı. İllər ötdükcə gələcək şairin poeziyaya olan münasibəti daha da ciddiləşdi. Və bundan sonra "Ədəbiyyat" qəzetlərində yer almış şairlərin misralarını görüb, sadəlovh uşaqlıq arzu və istəyi ilə şeirlərini onlara oxşatmağa çalışdı. Özünün qeyd etdiyi kimi, daha çox Mirzə Ələkbər Sabirin bitkin misralarının vurğunu oldu. Onun şeirlərindən təsirləndi, bəhrələndi və altıncı sinifdə oxuyarkən ilk şeirini yazdı. Və bu şeirdən sonra "Xocalı

məktəbinin şairi” kimi tanınmağa başladı. Bundan sonra şeir demək üçün keçirilən ədəbi məclislərin əvəzsiz şairinə çevrildi. Məktəb sərhəddini aşaraq özünü sənətsevər xalqına tanıdan şair dəfələrlə Xocalı Mədəniyyət evində öz şeirləri ilə çıxış edərək poeziya həvəskarlarının sürəkli alqışlarını qazandı. Hamı ondan təzə-tər poetik misralar gözləməyə başladı. Bütün bunlar isə sonralar Ələmdar Quluzadənin bir şair kimi formalaşmasında əvəzsiz rol oynadı.

Ələmdar Quluzadə Qarabağın Xocalı qəsəbəsində 1952-ci ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1973-cü ildə N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xankəndi filialında Azərbaycan dili və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Bir müddət pedaqoji fəaliyyət göstərmiş, Xocalı orta məktəbində və Xankəndindəki fəhlə-gənclər məktəbində ədəbiyyat müəllimi işləmişdir. Sonralar Dağlıq Qarabağ Radio Verilişləri Komitəsində Azərbaycan verilişləri redaksiyasında xüsusi müxbir olmuşdur. Hazırda, Azərbaycan Dövlət Radiosunda “Uşaq verlişləri” redaksiyasının baş redaktorudur. Yaradıcılığa gənc yaşlarında başlayan şairin ilk şeirlər kitabı “Dağların yaddaşı” adı ilə 1976-cı ildə çap olunmuşdur. Onun şeirləri ilk əvvəl “Azərbaycan gəncləri”, “Ədəbiyyat və incəsənət” qəzetlərində və “Ulduz” jurnallarında dərc edilmişdir. “Dağların yaddaşı” adlı kitabından sonra Ələmdar Quluzadənin bir-birinin ardınca maraqlı kitabları dərc edilmişdir. “Tumurcuqlar”, “Beş qitənin uşaqları”, “Şəhid şəhər”, “Alay komandiri”, “Ömür-gün qabaqdadır”, “İsti ocaq”, “Mənə söz verin”, “Məhləmizin uşaqları”, “Məni yoldan eləmə”, “Qürbətə düşən daş”, “Dilotu”, “Ürəyindən keçəydim”, “Ətirşah ətri”, “Boğça”, “Qadan mənə Qarabağ” kimi kitabları misal göstərmək olar. Ələmdar Quluzadənin şair qələmi uzun illərdir ki, aramsız işləyir. Neçə-neçə yurd həsrətli şeirlər, poemalar onun qələminin köynəyindən keçərək həyata vəsiqə

alib, oxucuları kövrəldib, düşündürüb. Ələmdar Quluzadənin çoxsahəli yaradıcılığında uşaq ədəbiyyatının özünəməxsus yeri var. Onun uşaq seirləri səmimiliyi, dilinin rəvanlığı ilə diqqəti cəlb edir. Təbiətə, folklora, xalq yaradıcılığina, insanların psixologiyasına yaxından bələd olan şairin uşaqlar üçün qələmə aldığı şeir və nağıllarda bu xüsusiyyət özünü daha aydın şəkildə göstərir. Ələmdar Quluzadənin "Qürbətə düşən daş" kitabında vətənə, xalqa, əməyə, anaya, dosta sevgi mövzularında yazılmış nağıllar ( "Papaqçı", "Dəmirçi Daşdəmir", "Bar ağacı", "Bənövşə", "Yuva", "Kiçik qardaş", "Nökər alim", "Göyərçin") geniş yer almışdır. Bu kitabda müəliif özünü nəsrdə sınamış, həm də uşaqlara haqq-ədalət, vətənpərvərlik, mərdlik, qorxmazlıq, cəsurluq, barədə düşüncələrini çatdırmışdır. Bir sözlə yazıçı-şair Ələmdar Quluzadənin nağılları ilə yanaşı, onun şeirləri, poemaları, pyesləri də bütün yaş qrup oxucularda maraq doğurmaqla yanaşı, onları vətənpərvər ruhda da tərbiyə etmişdir. Sevimli şairimizin bu il 70 yaşı qeyd olunur. Bu münasibətlə respublikamızın bütün təhsil müəssələrində, bağçalarda, lisey və gimnaziyalarda, həmçinin kitabxanalarda şairin yubileyi münasibətilə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planı həmçinin F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da hazırlanmışdır. Bu plan əsasında biz kitabxanaçılar bir sıra tədbirlərin keçirilməsini nəzərdə tutmuşuq. Şair Ələmdar Quluzadənin yubileyi ilə bağlı hazırladığımız metodiki vəsaiti sizlərin ixtiyarına veririk. Ümidvarıq ki, kitabxanaçılar bu vəsaitdən səmərəli şəkildə yararlana biləcəklər.

## BÖLMƏ II

### Yubiley tədbirlərinin keçirilməsi:

**Ömür dolu bir ev-eşik,**
**Hələ bir az çəkim keşik.**
**İki qolum iki beşik,**
**Qışım qoca, yazım uşaq.**

Bildiyiniz kimi, bu il istedadlı, bitkin qələmə malik, gözəl insan Ələmdar Quluzadənin 70 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, bağçalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yubiley tədbirlərinin keçirilməsi ilə bağlı plan tutulmuşdur. Plana əsasən ilk növbədə şairin yubileyi ilə bağlı kitab sərgisinin təşkili nəzərdə tutulmuşdur . Kitab sərgisi əsasən kitabxananın oxu zalında təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Uşaqların sevimlisi Ələmdar Quluzadə", "Ələmdar Quluzadə-70", "Uşaqların ürəyindən keçəydim", "Uşaqların yaxın dostu Ələmdar Quluzadə" və s. Sərginin nümunəsini veririk:

1.Başlıq: "Ələmdar Quluzadə-70"
2. Kitablarının nümayişi.
3.Görkəmli insanların Ələmdar Quluzadə haqqında söylədikləri.
4. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
5. Şeir parçası.

**Bir sinəm var sipərsiz,**
**Başıma kül səpərsiz.**
**Ay özündən xəbərsiz,**
**Sən də yaşa dolursan...**
**Zildəyəm zəllətindən,**

**Doymaram qürbətindən.**
**Bəlkə xəcalətindən**
**Sən də yaşa dolursan.**

## Görkəmli insanların Ələmdar Quluzadə haqqında söylədikləri

İstedadlı şair Ələmdar Quluzadə bu gün də öz bədii yaradıcılığı üzərində yorulmadan çalışır, həm ümumi və həm də milli uşaq ədəbiyyatımızı öz yeni, orijinal əsərləri ilə zənginləşdirir. Uzun yaradıcılıq ömrü keçməsinə baxmayaraq, yorulmur, həmişəcavan bir poeziya ustası kimi yeni-yeni uğurlar qazanır.

1976-ci ildə işıq üzü görmüş "Dağların yaddaşı" kitabından son zamanlar çapdan çıxan "Ətirşah ətri" kitabı və "Qürbətdən qürbətə düşən daş" əsərinə qədər keçdiyi yola baxanda görürük ki, onun potensialı hələ içəridədir.

**Füzuli Əsgərli,**
*Ədəbiyyatşünas-tədqiqatçı*

Ələmdarın şair qələmi uzun illərdir ki, aramsız işləyir. Neçə-neçə yurd həsrətli şeirlər, poemalar onun qələminin köynəyindən keçərək həyata vəsiqə alıb, oxucuları kövrəldib, düşündürüb.

**Rafiq Yusifoğlu,**
*Şair, yazıçı, professor*

Ələmdar Quluzadənin uşaq şeirləri səmimiliyi, dilinin rəvanlığı ilə diqqəti cəlb edir. Şairin folkloru, kənd həyatını, təbiət hadisələrini yaxşı bilməsi, həssas müşahidələri, predmetə uşaq gözü ilə baxmaq bacarığı onun şeirlərinin uğurunu təmin edən başlıca cəhətlər kimi yadda qalır.

**Rafiq Yusifoğlu,**
*Şair, yazıçı, professor*

Ələmdar Quluzadə sizin üçün şeir yazanda çalışır ki, əhvalatlar yumoristik olsun. Siz bu əsərləri oxuyanda qaşqabağınızı tökməyəsiniz. Üzünüzdə təbəssüm, gözünüzdə sevinc yaşları olsun.

**Zahid Xəlil,**
*Filologiya elmləri doktoru, professor*

Ələmdar Quluzadə ədəbiyyata gəlişi ilə yaşca özündən böyük nüfuzlu qələm sahiblərinin diqqətini cəlb etmişdir. Mənim fikrimcə Ə.Quluzadənin Qarabağla bağlı qələmə aldığı əsərlərini fərqli bir “Qarabağnamə” adlandırmaq olar.

**Vaqif Yusifli,**
*Tənqidçi*

Hər bir əsərin özünəməxsus rəngi var, dadı var. Ələmdar Quluzadə əsərlərinin isə səsi var, hayqırtısı var. Mən onun yaradıcılığını göy qurşağına bənzədirəm. Hər rəngin öz dərdi, sızıltısı var. Ortadan keçən çəhrayı rəng isə uşaqların sevincidir.

**Nüşabə Məmmədli,**
*Yazıçı*

Mənim aləmimdə Ələmdar Quluzadə şeir "yazmaq istəyənlər" sırasında heç vaxt olmayıb. O şairdi və öz pərəstişkarları var, onlar də Ələmdarı poeziyasına görə sevirlər.

**İlham Rəhimli,**
*Jurnalist, professor*

Ələmdar Quluzadənin yaradıcılığında Azərbaycan xalqının ən böyük dərdi olan Qarabağ itkisi, bu mövzuyla bağlı motivlər əsas yer tutur. Onun "Salam Xocalı dərdim" poeması bu baxımdan xüsusilə təsirli əsərdir.

**Rəşad Məcid,**
*Yazıçı*

**Kitablarının nümayişi:**










ƏLƏMDAR
QULUZADƏ
ÜRƏYİNDƏN
KEÇƏYDİM


ƏLƏMDAR QULUZADƏ
ƏTİRŞAH ƏTRİ


ƏLƏMDAR QULUZADƏ
614-CÜ
ŞƏHİD


ƏLƏMDAR QULUZADƏ
BOĞÇA


ƏLƏMDAR QULUZADƏ
NAVALÇA


Ələmdar Quluzadə
MƏHLƏMİZİN
UŞAQLARI


Ələmdar Quluzadə
MƏNİ
YOLDAN
ELƏMƏ


ӘЛӘМДАР ГУЛУЗАДӘ
АЛАЈ
КОМАНДИРИ


Ələmdar Quluzadə
Bulaq suyu
















Geniş və çoxşaxəli yaradıcılığa malik Ələmdar Quluzadənin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab icmalıdır. İcmalı təşkil edən kitabxanaçı şairin bir-birindən maraqlı kitablarının icmalını keçirə bilər. Tədbirdə iştirak edən kitabxanaçı qonaqlara şairin həyat və yaradıcılığından bir qədər söz açdıqdan sonra "Ürəyindən keçəydim" adlı şeirlər toplusunun icmalına başlayır.

Əziz tədbir iştirakçıları, bu kitab 2010-cu ildə "Ozan" nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Kitabda Azərbaycan

gözəllərinin sədaqətindən, ləyaqətindən, bəhs edən poetik nümunələr yer almışdır. Kitab İlham Rəhimlinin "Sevgisi sözündə çiçəklənən" ön sözlə başlayır.
Ələmdar Quluzadə Azərbaycan dilinin şirəsini, dadını və duzunu, məlahətini və musiqisini, cazibəsini və füsunkarlığını, məna tutumunu və fəlsəfi dərinliyini həssaslıqla duyan, bilən, bütün bunları şeirlərinin misralarında yüksək peşəkarlıqla əritməyi bacaran şairdir.

Əziz oxucu!

Əminəm ki, bu kitabı oxuyandan sonra sənində qəlbində neçə-neçə xoş ovqatlı, qanadlı duyğular doğacaq.

**Ön söz müəllifi İlham Rəhimli**

F.Köçərli adına RUK- nın biblioqrafiya şöbəsi Ələmdar Quluzadənin yaradıcılığından bəhs edən slayd hazırlayıb clb.az saytına yerləşdirmişdir. https://www.clb.az/biblioqrafik-xidm%C9%99t/melumat-biblioqrafiya/slaydlar/sair-ur-yinin-qarabag-agrisi-l-mdar-quluzad

Daha sonra "Söz yiyəsi", "Gözəlliyə əsir düşdüm", "İllərin imtahanı", "Həsrət - elə sevgidir", "Yurdu gəzib dolaşdıqca" başlıqları altında şairin bir birindən maraqlı şeirləri oxuculara təqdim olunur. Kitabda yer alan şeirlərdən "Qara gözlər, ağ saçlar" adlı şeiri sizlərə təqdim edirik:

**Sonra dada çatmır yüz haray, həşir,**
**Taca əl uzatma taxtından qabaq.**
**Qızlar gözəlləşir, dünya gəncləşir,**
**Mən şair olmuşam vaxtından qabaq.**
**Qəsdimə durubdur bu insafsızlar,**
**Ürək sındırırlar, çiçək dərirlər.**
**Mənə şair kimi gül verən qızlar**
**Mənə əmi kimi yer göstərirlər.**

Kitabxanada şair Ələmdar Quluzadənin yubileyi münasibətilə təşkil olunan tədbirlərdən biri də şeir müsabiqəsidir. Bu tədbir oxucuların ən çox sevdiyi və maraq göstərdiyi tədbirlərdən biridir. Şeir müsabiqəsinin təşkili bu baxımdan zəruridir ki, bu tədbirdə oxucular şeiri intonasiya ilə demək bacarığı ilə yanaşı, onu qavramaq baxımından da çox sey öyrənmiş olurlar. Müsabiqənin şərtləri belədir ki, münsiflər oxucuları şeir demək bacarığına görə seçir və onları I, II, III yerlər üzrə müəyyənləşdirib, sonda diplom və hədiyyələrlə təltif edirlər. "Hər sualın öz cavabı" adlı tədbirə məktəblilər və müəllim heyyəti dəvət olunur. Bildiyiniz kimi, şair Ələmdar Quluzadə qələmini hər bir mövzuda sınamışdır. Onun vətənpərvərlik mövzusunda qələmə aldığı şeirlər isə təqdirə layiqdir. Şeir müsabiqəsində bu mövzuda yazılmış şeirlərdən istifadə olunması məqsədəuyğundur. Məsələn, "Alay komandiri", "Şəhid şəhər", "Qadan mənə Qarabağ", "Şəhidlər xiyabanı", "Şuşaya aparacaq", "Zəfər zənguləsi", "Vətən dedim" və s. misal göstərmək olar. Oxucular səhnəyə daxil olur. Ələmdar Quluzadənin "Vətən dedim" şeirini söyləyirlər.

Ana yurdum, hər çeşmənə,
Bulağına Vətən dedim.
Gözlərimə nuru hopan
Çırağına Vətən dedim.

Meh istədim, külək əsdi,
Nəyin varsa müqəddəsdi.
Ulu Vətən, sənin isti
Qucağına Vətən dedim.

Qayaların sətirinə,
Çiçəklərin ətirinə,
Çörək bişən təndirinə,
Ocağına Vətən dedim.

Bir mənzilə at çaparmış
Dərədə yaz, zirvədə qış.
Bircə ovuc, bircə qarış
Torpağına Vətən dedim.

Gözüm, könlüm səni gəzər,
Ayrılığa çətin dözər.
Vətən, sənin daşına zər,
Bayrağına Vətən dedim.

Yubileyini qeyd etdiyimiz şair Ələmdar Quluzadənin çoxşaxəli yaradıcılığında uşaq ədəbiyyatının özünə məxsus yeri var. Təbiətə, folklora, xalq yaradıcılığına, insanların psixologiyasına yaxından bələd olması şairin müharibə, məhəbbət, cəmiyyət mövzularında yazdığı əsərlər kimi, uşaqlar üçün qələmə aldığı şeir və nağıllarda da özünü aydın şəkildə göstərir. “Qürbətə düşən daş” nağıllar kitabı Ələmdar Quluzadənin uşaqlara yeni hədiyyəsidir. Bu kitabında müəllif həm özünü nəsrdə sınamış, həm də uşaqlara haqq-ədalət, vətənpərvərlik, mərdlik, qorxmazlıq, cəsurluq barədə düşüncələrini çatdırmışdır. Kitab aşağı və orta yaşlı məktəblilərlə yanaşı, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. “Nalbənd Nağı”, “Balıqçı və söyüd”, “Duz dağı”, “Alim və quldur,” “Qürbətə düşən daş”, “Qoca dilənçi”, “Ceyran südü”, “Papaqçı” , “Sirli dəyirman”, Şahzadə və şair”, “Zərgər və cütçü” və bu kimi nağıllar kitabda yer almışdır. “Zərgər və Cütcü”  nağılını sizlərə təqdim edirik.

Bir məmləkətdə bərk quraqlıq keçirmiş. Göydən yerə bir damcı düşmürmüş. Zəmilər qovurğa kimi qovrulur, çəmənliklər ütülür, meşələr saralır, bulaqlar quruyurmuş. Dünya görmüş kişilər duyurlar ki, ta gələn ilki məhsula qədər məmləkətdə azuqə qıtlığı olacaq, çörək ehtiyacı, aclıq camaatı imtahana çəkəcək. Başıpapaqlılar baş götürüb çörək dalınca gedirlər; nalbəndi də, dərzisi də, rəncbəri də, cütçüsü də.

Bir kənddə iki qonşu vardı. Biri zərgər idi, o biri cütçü. Zərgər sırğa, bilərzik, üzük, boyunbağı, toqqa düzəldər, çütçü öküzlərini çütə qoşub, torpaq şumlayar, taxıl əkər, xırman döyər, dən sovurardı.

Bir gün zərgər cütçünün doqqazını döydü. Çütçü qənşərə çıxdı. Zərgər cibindən bir ovuc daş-qaş çıxarıb dedi:

-Qonşu, al bu zərzibanı, uşaqların var, gərəyin olar, əvəzində mənə taxıl ver.

Çütçü zərgərin əlini geri itələdi. Dedi ki, çörəklə qızılı bir tərəziyə qoymazlar.Kasıbın olanından payın var.

Cütçü zirzəmidən bir dağar buğda gətirib zərgərə verib dedi:

-Qonşu, apar, dəyirmanda üyüd, təknədə yoğur, təndirə yap, halal xoşun olsun. Mən çörəyi qızıla dəyişmirəm.

Bir həftədən sonra çütçünün doqqazı yenə döyüldü. Cütçü gördü ki, bu dəfə də gələn zərgərdi.

-Xeyir ola, qonşu,-deyə cütçü soruşdu.

Zərgər utana-utana dedi ki, bu dəfə iki ovuc daş-qaş gətirib. Cütçü qonşusunun niyyətini başa düşdü, daş-qaş yox, dağarı onun əlindən alıb sarı buğda ilə doldurdu. Zərgəri yola saldı.

Beş-üç gündən sonra zirzəmiyə düşüb baxdı ki, taxıl tükənmək üzrədir. Cütçünü fikir götürdü. Arvad-uşağa bir söz demədi. Səhər tezdən zərgərin doqqazını taqqıldatdı. Qonşusu qapını açanda zərgərin gözləri kəlləsinə çıxdı. Fikirləşdi ki, yəqin borcunu almağa gəlib. Cütçünü qabaqlamaq istədi. Dedi

ki, bəs filankəs gəldi, qızılları, daş-qaşı apardı. Evdə diş qurdalamağa bir şeyimiz qalmayıb.

Cütçü arif adam idi, həm də əli qızılla, dili yalanla oynayan qonşusunu yaxşı tanıyırdı. Bilirdi ki, sandıqdakı qızılların hamısını satası olsa da, qış öz sözünü deyəcək.

-Qonşu, il yaman bəd gəlib. Bizi qızıl teşt yox, dolu təknə aclıqdan qurtara bilər. Bir məsləhətim var,-cütçü dərindən köks ötürdü.

Zərgər dedi:

-Cütçü qardaş, sən ağıllı adamsan, mənim əlim qızılla işləyir, sənin başın. Məsləhətin nədir?

-Qonşu, çörək camaatı imtahana çəkir. Özün görürsən ki, qızılın üzünə baxan yoxdur. Belə getsə qışdan yaza çıxa bilmərik. Gəl gedək fəhlə olaq, cütçülük edək, evimizə çörək gətirək.

-Hara gedək, cütçü?

-Qonşu məmləkətlərdən birinə, harda çörək varsa ora. İşləyək, tər tökək qazanaq.

Zərgər barmaqlarına baxdı, qabar görməyən ovuclarını sığalladı, boşalmaqda olan dağarını yadına saldı.

-Gedək, cütçü qardaş, sabah sübh tezdən yola düşək.

O biri gün səhər tezdən zərgərlə cütşü xurcunlarını çiyinlərinə salıb yola düzəldilər. Beş gündən sonra bir ölkəyə çatdılar. Gördülər ki, burda hələ zəmilər yaşıldı, hava mülayimdir, çaylar şırıltı ilə axmaqdadır. Qonşular cənnətə düşdüklərini zənn etdilər.

Soraqlaşıb mal-mülk sahiblərindən birinin evinə tərəf yollandılar. Cütçü zərgəri xəbərdar etdi ki, nə badə zərgər olduğunu deyəsən, sənə oraq da verməzlər.

Mülk sahibi onların qabağına yeriyib soruşdu:

-Xoş gəlmisiniz, istəyiniz nədir?

Cütçü boş xurcunu yerə qoydu.

_Ey hörmətli insan, biz qonşu məmləkətdən gəlmişik, cütçü adamlarıq, iş görüb çörək qazanmaq niyyətindəyik.
Mülk sahibi bığlarını eşdi:
-Zərgəri, alverçisi bol olan ölkəni həmişə ac görmüşük. Əkinçi üçün həmişə işimiz var.
Cütçü başı ilə razılığını bildirdi, zərgər bir kəlmə danışmadı.

Qonşulara bir koma verdilər, yemək-içmək sarıdan korluq çəkməyə qoymadılar. Bir həftədən sonra oraq götürüb sünbülü dəyən zəmilərdən taxıl biçməyə, dərz bağlamağa başladılar. Xırmanlar sünbül təpələrini tutmurdu. Öküzlər vələ qoşuldu, xırman döyüldü, sovuruq atıldı, buğda tayaları göz oxşadı, könül açdı. Dəyirmanlar işlədi, təndirlər alovlandı, təknələr çörəyi, evlər qonağı tutmadı.

Günlərin üzü payıza dönəndə mülk sahibi qonşuların hüzüruna gəldi.
-Əməyiniz çoxdur, zəhmətiniz böyükdür, aldığınız halalınızdır,-dedi.-Bax, payınıza iki kisə qızıl, dörd çuval buğda düşür. Hər çuvalda on iki put buğda var. Hərənizə də bir öküz verirəm. Yükünüzü tutun, yollanın məmləkətinizə.
Zərgər qızılın adını eşidən kimi sevincindən bilmədi nə eləsin.
-Qızılı kimə verirsən, buğdanı kimə?-dedi.
-Özünüz bölün,-mülk sahibi cavab verdi.
Cütçü bilirdi ki, çörək dalınca gələn zərgər qızıllara sahib duracaq.
-Sən böl qonşu,-dedi.

Zərgər iki kisə qızılı, cütçü dörd çuval buğdanı götürdü. Öküzləri yükləyib mülk sahibi ilə xudahafizləşdilər, öz məmləkətlərinə mənzil başladılar. Gəlib bir dağ çayının qırağına çatdılar. Əvvəlcə cütçü öküzünü çaya vurdu, yükü ağır olduğundan sel öküzə güc gəlmədi. Dalınca zərgər öküzünü hayladı. Çayın qırağında öküzün ayağı yerdən üzüldü, qızıl qarışıq öküz sulara qərq oldu. Zərgər canını birtəhər qurtardı.

Çütçünün ürəyi yumşaq və təmiz idi. Zərgərin ailəsinə bir çuval taxıl verdi. İki çuvalı dəyirmanda uyutdürüb evinə apardı. Bir çuval buğdanı toxumluq saxladı. Payızda torpağa səpdi. Yazda zəmilər göyərdi, yayın əvvəlində məhsulu topladı, döydü, anbara yığdı.

Payızın bir günü səhər tezdən cütçünün qapısı döyüldü. Zərgər hələ də cütçüyə möhtac idi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında uşaqların sevimli şairi Ələmdar Quluzadə yaradıcılığının geniş təbliği üçün kitabxanada şairlə görüş təşkil olunur. Tədbirə uşaq şair və yazarları ilə yanaşı, məktəblilər, tələbələr, kitabxanaçılar dəvət olunur. Tədbirə təşrif buyuran qonaqlar ilk əvvəl şairin yaradıcılığı ilə bağlı məruzəni dinlədikdən sonra, "Bulaq suyu" şeirlər kitabı ilə yaxından tanış olurlar. Kitab şairin uşaqlara müraciəti ilə başlayır.

Salam, mənim əziz, mehriban, ağıllı və dəcəl dostlarım!

Yadda saxlayın ki, həmişə, hər yerdə sizi izləyən, üstünüzdə göz-qulaq olanlar var –istər bağçaya gedin, istər məktəbə. Lap həyətdə oynayanda, dərslərinizə hazırlaşanda, faydalı iş görəndə, hərdən dəcəllik edəndə mən də sizi müşahidə edirəm. Hətta sizdən nələrisə öyrənirəm. Yoxsa uşaqlar üçün kitab nədir, heç bir nağıl da yaza bilməzdim. "Boğça", "Dilotu", "Ətirşah ətri", "Navalça" kimi kitabların qəhrəmanları məhz sizsiniz.

Nə isə...Bu kitabı oxuyub özünüzə oxşayan uşaqları görəndə qətiyyən təəccüblənməyin. Axı mən təkcə eşitdiyimi yox, həm də gördüyümü yazmışam.

Kitabda çap olunan "Teymur babanın nəvələri " adlı şeiri uşaqların ifasında dinləyirik.

Hər axşam babasına
Zəng eləyir Əzizə:
-Ya məni sizə apar,
Ya da özün gəl bizə.

Mahmudun “sifarişi”
Evdə salır qalmaqal:
-Bizə gəlsən birinci
Məni qucağına al.

Məhəmmədlə Əhmədin
Davası baba üstdə.
Hamısı deyir məni
Sən hamıdan çox istə.

Lamiyyə qolun açıb
Qanadlanır süzməyə,
Ləman deyir, ay baba,
Məni apar gəzməyə.

Nəvələr qaynaşanda
Həyət qaynayan tava,
Teymur babanın üstdə
Hər gün davadı, dava.

Teymur baba hirslənib
Nəvələrə təpinmir,
Nəvələri pisləmir.
Babasından savayı
Nəvələr babasından
Axı heç nə istəmir.
Tədbirin sonunda şair Ələmdar Quluzadə oxucularına öz imzası ilə kitab təqdim edir.

Şair Ələmdar Quluzadənin 70 illik yubleyi münasibətilə keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində şairin “Qadan mənə Qarabağ” adlı kitabının müzakirəsini keçirmək yerinə düşər. 2006-cı ildə “Ozan” nəşriyyatı tərəfindən işıq üzü görən bu kitabda Ələmdar Quluzadənin Qarabağ mövzusunda yazdığı şeirlərlə yanaşı, müharibədən bəhs edən beş poeması və qədim Şuşaya həsr olunan “Pənah evi” adlı məzmun pyesi daxil edilmişdir. Şairin doğulub boya-başa çatdığı Xocalının ermənilər tərəfindən işğal edilməsi, uşaqdan böyüyə yüzlərlə dinc Xocalı sakininin vəhşicəsinə qətlə yetirilməsi onun qəlbində və qələmində ağrılı-acılı iz buraxmışdır. Müəllif bu topluda vətən oğullarını ayıq-sayıq olmağa, dostu düşməndən, əbədini ötəridən seçməyə, torpağımızın işğalı ilə barışmamağa, daim mübariz olmağa çağırır. Kitabda “Qanımla yazılan Qarabağnamə”, “Eşqimsən gücüm olsa”, “Dağlar, məni bağışlama”, “Bilirsənmi?”, “Bu baharın gəlişini görmədim”, “Vətən bayrağı”, “Qarabağ himni”, “Dünyanın işi” və s. adlı şeirlər yer alır. Bütün şeirlər, oxucularımıza vətənpərvərlik, anaya, millətə, xalqa məhəbbət hissi aşılayır. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bildiyimiz kimi Ələmdar Quluzadə yalnız nəzm deyil, eyni zamanda nəsr əsərlər də yaratmışdır. Onun 2008-ci ildə “Qürbətə düşən daş” adlı nağıllar kitabı yazıçının uşaqlara ən gözəl hədiyyəsidir. Kitabda 23 adda “Nalbənd Nağı”, “Balıqçı və söyüd”, “Duz dağı”, “Yalançı və tamahkar”, “Kömürçüoğlu”, “Kiçik qardaş”, “Bənövşə”, “Kiçik qardaş”, “Nökər alim”, “Ceyran südü”, “Papaqçı”, “Xan, vəzir və keçəl”, “Göyərçin”) bir-birindən maraqlı nağıl yer almışdır.

Şair Ələmdar Quluzadənin yubileyi münasibətilə təşkil olunan tədbirlərdən biri də ədəbi-bədii gecədir. Kitabxanaçı bu tədbirə iki ay qabaqcadan hazırlaşmalıdır. İlk əvvəl tədbirin

ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə şairin şeirləri dinlənilir, hekayə və poemalarından səhnəciklər göstərilir. Tədbirdə şair və yazıçılar, ədəbiyyat müəllimləri iştirak edir. "**Nəğmə ilə köklənən söz**" adlı ədəbi-bədii gecənin ssenarisini sizlər üçün təqdim edirik. Səhnədən Ələmdar Quluzadənin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

**Şairləri ana doğar,**
**Haray doğmaz, həşir doğmaz,**
**Milyon pişik milyon ilə**
**Bir dam altda bir şir doğmaz,**
**Şairləri incitsəniz**
**Ana Vətən şair doğmaz**
**Şairləri incitməyin,**

Hörmətli tədbir iştirakçıları! Bu gün istedadlı şair, publisist, uşaqdan-böyüyə hamımızın yaxşı tanıdığı Ələmdar Quluzadənin 70 illik yubileyini qeyd etmək üçün toplaşmışıq. Gəlin sizinlə birlikdə Ələmdar Quluzadənin həyat və yaradıcılığına bir daha nəzər salaq. Ələmdar Quluzadə 1952-c il yanvarın 7-də Əsgəran rayonunun Xocalı kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstititunun Xankəndi filialının Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmişdir. Hərbi xidmətini başa vurduqdan sonra Ələmdar Quluzadə kənd orta məktəbində, Xankəndi şəhərindəki Qarabağ ipək kombinatının nəzdində olan 3 saylı fəhlə-gənclər məktəbində müəllim işləmişdir. Sonralar Xankəndi şəhərində DQMV Radio Verilişləri Komitəsində Azərbaycan verilişləri redaksiyasının xüsusi müxbiri (1977-

1988), Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində radionun iqtisadiyyat və sosial həyat baş redaksiyasının baş redaktorunun müavini (1994-1996) olmuş, hazırda uşaqlar üçün proqram redaksiyasinin baş redaktorudur. Bədii yaradıcılığa “Familiyanız” adlı şeiri ilə başlamış Ələmdar Quluzadə XX əsrin 70-ci illərindən ədəbiyyata gələn ilk şeirlərindən Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Nəriman Həsənzadə kimi görkəmli söz sərraflarının diqqətini cəlb etmişdir. Şairin ilk şeirlər kitabı-“Dağların yaddaşı” 1976-cı ildə “Azərnəşr” tərəfindən çap olunmuşdur. “Ömür-gün qabaqdadır”, “İsti ocaq”, “Mənə söz verin”, “Şəhid şəhər”, “Qadan mənə Qarabağ” və s. kimi kitabları ilə ədəbiyyatda təsdiqini tapan Ə.Quluzadə uşaq ədəbiyyatına da eyni sevgi və məsuliyyətlə yanaşır. Bir-birinin ardınca “Dağların yadigarı”, “Tumurcuqlar”, “İsti ocaq”, “Beş qitənin uşaqları”, “Mənə söz verin”, “Məni yoldan eləmə” və s. kimi çoxlu sayda kitablar çap etdirmişdir. Ələmdar Quluzadə xalqın sevimli sənətkarıdır. O, zamanın nəbzini tuta bilən xalqın dərdinə, sevincinə şərik olan bir insandır. Onun əsərlərini təkcə kiçiklər deyil, həm də böyüklər də sevə-sevə oxuyur.

*Aparıcılar səhnəyə daxil olur.Məktəblilər Ələmdar Quluzadənin “Papaqçı” adlı hekayəsindən bir parça göstərirlər.*

**Aparıcı:** Neçə qərinə bundan qabaq bir papaqçı vardı. Elin, obanın kişiləri gəlib ondan papaq alar, atasına rəhmət oxuyardılar, hələ bu obada papağı başından düşən, papağını külək qovan kişi olmamışdı. Günlərin bir günü düşmən hücum çəkib, məmləkətin üstünə yeridi. Dəmirçilər qılınc döydü, nalbəndlər at nalladı, əli ilmə tutanlar çorab toxudular. Papaqçı da öz işində idi-gecə-gündüz papaq tikirdi. Döşü döyüş üçün atlanan kişilər də var idi, başını gizlətməyə yer gəzən başı

papaqlı da. Bir gün papaqçı gördü ki, papaq alan kişilərin çoxu küncdə bucaqda baş girləyir, başını da, papağını da qardan, yağışdan qoruyur. Fikirləşdi ki, papağı namus-qeyrət üçün tikirsə, onu başına qoyan yağının qabağından qaçmamalıdır. Məmləkətdə ağır döyüşlər gedirdi. Papaqçının ürəyindən qara qanlar axırdı. Dizlərini qucaqlayıb oturmuşdu öz dükanında. Bu zaman bir bığıburma kişi içəri girib salam-əleyk elədi. Sonra da papaqçıya dedi ki, ona başı ölçüsündə mələməmiş quzunun dərisindən papaq versin.

**Papaqçı:** Papaq sənin nəyinə lazımdır?

Müştəri özündən çıxdı.

**Müştəri:** Papaq kişinin nəyinə lazımdır? Xeyir işimiz var. Sağlığına toyda papağımın arxasın qaldırıb süzəcəyəm.

Elə bil papaqçını ilan vurdu. (Papaqçı müştərini qovdu)

**Papaqçı:** Mən papağı döyüşən kişilərə, vuruşan igidlərə, bəxşiş verirəm. Yurdumun başının üstünü düşmən qara bulud kimi kəsdirəndə ceyran balası kimi süzən "kişilərə" yox!

(Müştəri çıxıb gedir)

**Aparıcı:** Papaqçı yerini təzəcə isitmişdi ki, üç oğlan dükana girib papaq istədi. Papaqçı onlara da eyni sualı verdi.

**Papaqçı:** Papaq sənin nəyinə lazımdır?

**Cavanlar:** Papaq kişinin nəyinə gərəkdir? Başımıza ləçək bağlayası deyilik ki?

**Papaqçı:** Başına papaq qoyan yurdu qorumalıdır, qurşağa qılınc taxmalıdır, yəhəri atın belinə sıxmalıdır.

(Cavanlar gülüşdülər)

**Cavanlar:** Baba, sənin nəyinə gərək papaq alanlar nə etməlidirlər? Niyə müştərini qaçırdırsan?

(Papaqçı əlini xəncərə atdı)

**Papaqçı:** Baş özündən qiymətli papağı gəzdirə bilməz. Nə qədər ki, əlim namərd qanına batmayıb, rədd olun, burdan!

**Aparıcı:** Cavanlar bir-birini itələyə-itələyə qapıdan çıxdılar. Hər yerə xəbər çatdı ki, papaqçı hər müştəriyə, hər yoldan ötənə papaq satmır. Müştərilərin çoxu papaqçıdan üç çevirdi. Bir gün qoca papaqçı dükanda oturmuşdu. İçəri bir oğlan girdi. Dərisi ütülmüş papağını başından çıxarıb təzə papaqlara baxdı.

**Oğlan:** Döyüş papağı istəyirəm, baba!

**Aparıcı:**Qoca papaqçı oğlanı bağrına basdı. Qılınc kəsməz, ox batmaz papaqlardan birini verdi oğlana.

**Papaqçı:** Bəxşişdir.

**Oğlan:** Dəmirçioğlu borclu qalmaz.

**Aparıcı:** Atının belinə sıçradı. Məmləkətdəki kişilər, ərlər qeyrətə gəlmişdilər. Ərlər, ərənlər qoca papaqçıdan papaq almaq üçün onun qapısını kəsdirirdilər. Papaqçı gecə-gündüz işləyirdi. Bir gün məmləkətə xəbər yayıldı ki, papaqlı kişilər düşmənləri

torpaqlarımızdan qovub çıxarıblar. Papaqçı ömründə ilk dəfə hönkür-hönkür ağladı.

Oxucular səhnəyə daxil olur, Ələmdar Quluzadənin “60 yaşın nağılı” adlı şeirindən bir parça söyləyirlər.

**I Oxucu:** Günlər bərədədi, həftələr ovda,
Qazana cumuruq boş qaşıq kimi.
Payız qovhaqovda, qış qovhaqovda,
Yaş əldən sürüşür yaş balıq kimi.

Aldadıb alnıma yazdı altmışı,
Damı təpəsinə uça dünyanın.
Bizi qocaltmağa qarışıb başı,
Özü cavan qalıb qoca dünyanın.
Bağlar sovulmaqda, bostan talanda,
Leylək lələk tökür, lək tapa bilmir.
Qara tellərimə qurban olan da
Başımda bir qara tük tapa bilmir.

Hirsimi, hikkəmi töküb varağa,
Sözün təndirində kirpik ütmüşəm,
Ağa bələnmişəm başdan-ayağa,
Sanki 60 il dən üyütülmüşəm.

Bu yaşın dərd adlı dəvələri var,
Xəlbir ələ gəlmir, ələyi tutur.
Könlümü alanın nəvələri var,
Gülümü alanın gülməyi tutur.

**II Oxucu:**Nə ağacın hisin görüb,
Nə çiynində qala yükü,
Özü yıxıb, özü gülüb,
Tərpənməyib bircə tükü
Bu daş mənə tanış gəlir.

Gah göstərib boz üzünü,
Gah gizlənib bez kisədə,
Vətənindən qərib düşüb
Yükün üstə gəlməsə də
Bu daş mənə tanış gəlir.

Düşmən mənə toy tutanda
O düşmənə toy qurubdur,
Qından çıxan qılıncımı
İki bölüb oturubdur
Bu daş mənə tanış gəlir.

Nəzir deyib dayanmışam,
Bəd niyyəti, nəzəri var,
Gördüyün daş ürəklərdən
Birinə çox bənzəri var
Bu daş mənə tanış gəlir.

Gah solumda fırfıradır,
Gah sağıma keçir mənim,
Neçə ildir bir qara daş
Başıma and içir mənim
Bu daş mənə tanış gəlir.

**Aparıcı:** Ələmdar Quluzadə əsasən, XX əsrin 70-ci illərində ədəbi mühitə gəldi və artiq bitkinləşmiş qələminin gücündən də elə o illərdə istifadə etdi, poetik yaradıcılığına da eyni sevgi ilə yanaşdı. Ozünün yaradıcılıq üslubunu tapmağı, taptanmamış ədəbi cığırla addımlamağı qarşısına məqsəd qoydu və bunu əldə edə bildi. Çünki gənc şair dərk edirdi ki, üslub insanın özüdür, təkrar olunmayan fərdiliyidir, başqalarına oxşamamasıdır, bənzərsizliyi və ixtiraçılığıdır, öz sözü, öz səsi, öz nəfəsi ilə başqalarından fərqlənmək manerasıdır. Oxucular səhnəyə daxil olur, Ələmdar Quluzadənin "Uşaq şairləri uşaq kimidir" şeirini söyləyirlər.

**I oxucu:** Duzu sözündədir, qəndi dilində
Bütün sevincini uşaqla bölər.
Fağırının nədir, lap dəcəlin də
Xətrinə dəysəniz kövrələ bilər
Uşaq şairləri uşaq kimidir.

Qədir də, qiymət də, baxt da baxtabaxt,
Uşağın könlünü sıxmayın, nolar.
Uşaq şairinin yanında heç vaxt
Uşağa uşaq tək baxmayın, nolar
Uşaq şairləri uşaq kimidir.

Başının üstündə kölgə görəndə
Şehli çiçək kimi gözün sıxmasın.
Uşağı aldadıb sevindirəndə
Uşaq şairləri yaddan çıxamsın
Uşaq şairləri uşaq kimidir.

**II oxucu:**Dərdli uşaq görsə, o da qüssədə,
Ömrü neçə ömür daşıyır onun.
Saçı ağarsa da, əli əssə də
İçində bir uşaq yaşayır onun
Uşaq şairləri uşaq kimidir.

Dünya qollarının üstündə yatıb,
Desən ki, dil bilir kaman, inanır.
Uşağın başını nağılla qatıb
Özləri nağıla yaman inanır
Uşaq şairləri uşaq kimdir.

**Aparıcı:**Şairin 70-80-ci illərdə qələmə aldığı şeirlər müxtəlif mövzulara həsr olunmuşdur.“Gülsatan qarı”, “Bölgü”, “Könlüm yaman ərköyündür”, “El məni qınamasa...”, “Laçının yollarında”, “Gecələr uzun olur”, “Sevdiyimi nə bilirsən?”, “Qızlar məhəbbətdən şeir istəyir” və s. Şeirlərində poetik fikrin əzəməti özünü göstərir. Bu şeirlər yaranan zaman şair sütül gənclik dövrünü yaşasa da poetik təfəkkürü, poetik duyumu da daha çox qabarıq nəzərə çarpır.
Nəğmə itirmişəm bir dodaq, bir dil,
Sözü bircə bənddi, ahı bir düzüm.
Onu haçan yazdım, yadımda deyil,
Harada itirdim, bilmirəm özüm.

**Aparıcı:** Şairin püxtələşmiş dövründə çap etdirdiyi “Məni yoldan eləmə” kitabında ən zərif hissi-emosional təsirli, poetik obrazlılıq əzəmətli, aforizm mahiyyətli misralar axtarışına çıxırsan. Sən demə, şairin yaradıcılığında axtarış aparmağa ehtiyac yox imiş. Deməк olar ki, zamanın tələblərinə uyğun gələn bütün bu şeirlərin hamısında misralardakı sərrast söz

sıralanması, onun bədii hörgüsü, sözün dəyərinin uca tutulması, oxucuların qəlbini oxşayan tutumlu poetik ifadələrin əzəməti daha aydın görünür. Oxucular səhnəyə daxil olur “Vətən eşqi” adlı şeiri söyləyirlər.

I Oxucu:

Qartal kimi millənərəm göylərə,
Lələyimdə Vətən eşqi görərsən.
Çəmən olub ayağını öpərəm,
Çiçəyimdə Vətən eşqi görərsən.
Tütəyimlə dağı-daşı dindirim,
Qılıncımı kəhər ata mindirim.
Mən yandıqca alovlanar təndirim,
Çörəyimdə Vətən eşqi görərsən.
Alın təri içirərəm bağlara,
Qoşa çiynim tağbənd olar tağlara.
Dayaq versəm kürəyimi dağlara,
Kürəyimdə Vətən eşqi görərsən.
Sinəm səngər, səngər mənim sipərim,
Tüfəng kimi tətikdədir təpərim.
Ayaqlansa, tapdalansa çəpərim,
Biləyimdə Vətən eşqi görərsən.
Dodağıma toxunanda şərbəti,
Bir-birinə qarışıbdır qürbəti.
Gözlərimdə tapa bilsən həsrəti,
Ürəyimdə Vətən eşqi görərsən.

**Aparıcı:** İstedadlı şair Ələmdar Quluzadə bu gün də öz bədii yaradıcılığı üzərində yorulmadan çalışır, həm ümumi və həm də milli uşaq ədəbiyyatımızı öz yeni, orijinal əsərləri ilə zənginləşdirir. Uzun yaradıcılıq ömrü keçməsinə baxmayaraq yorulmur, 70 yaşlı müdrik, həmişəcavan bir poeziya ustası kimi yeni-yeni uğurlar qazanır. İndiyə qədər iyirmidən çox kitabın müəllifidir. 2022-ci il yanvarın 7-də şairin 70 yaşı tamam olur. Axı, 70 yaş nədir ki? Bizim fikrimizcə, bu yaş şairin ən yetkinlik, müdriklik çağıdır, onun daha daha bitkin obrazlar yaratması, yeni-yeni poetik sözlər sıralaması, hörgüləməsi vaxtıdır. Biz hələ bundan sonra da ürəyi sənət nümunəsi yaratmaqla döyünən Ələmdar Quluzadədən oxucuları məftun edəcək yeni əsərlər gözləyirik. Gözəl misraların əvəzolunmaz müəllifi, tanınmış şair Ələmdar Quluzadəyə bundan sonra da şövqlə yaratdığı təravətli poetik misralarının ölçüsü qədər uzun ömür diləyir, saysız-hesabsız müxtəlif janrlı əsərlər müəllifi olmağını arzulayırıq! Uzaqlardan boylanan 80 illiyinə yeni-yeni orijinal əsərlərlə gəl, öz xalqını sevindir, sevimli şairimiz.

Oxucular Ələmdar Quluzadənin kəlamlarından bir neçəsini təqdim edir.

Qələmi söz doğmayan sözün ağrısını və ağırlığını dərk edə bilməz.

***************

Sözün əzəmətinə inanmayan adam səfil, sözün qüdrətinə arxalanmayan adam bədbəxt, sözün ətrini duymayan adam sözün möcüzəsindən xəbərsiz canlıdır.

***************

Hadisəyə çevirə biləcək mövzu həmişə var. Onu hadisəyə çevirə biləcək ifadəni, kəlməni, sözü özün tapmalısan.

Zaman kiminin çiynində simurq quşu, kiminin kürəyində düz şələsidir. Di gəl ki, bilmirsən sən zamanı aparırsan, yoxsa zaman səni.

***************

Əllərimi yuyandan sonra həmişə öz üzümü yuyuram. Sən demə üzdə olmaq üçün bu hər şey deyilmiş.

****************

Tədbir Ələmdar Quluzadənin “Gəlin uşaqlara oxşayaq” adlı şeiri ilə başa çatır.

Üfüqlər-səmada oyanan səhər,
Dan yeri-şəfəqə boyanan səhər.
Uşaqlar sabaha boylanan səhər
Gəlin uşaqlara oxşayaq bir az.
Günəş kainatın çıraq dünyası,
Çiçəklər, ləçəklər budaq dünyası.
Uşaqlar dünyanın uşaq dünyası
Gəlin uşaqlara oxşayaq bir az.
Gözəli köksümdə dil açan dilək,
Dəcəli sinəmdə döyünən ürək.
Gəlin uşaqlarla əl-ələ verək
Gəlin uşaqlara oxşayaq bir az.
Uşaq tək sevinək ocaq görəndə,
Qanadlı quş olaq budaq görəndə.
Harda olur-olsun, uşaq görəndə
Gəlin uşaqlara oxşayaq bir az.
Dodaqlar nəğmənin təzəsin deyə,
Gülüşlər dünyanı bəzəsin deyə,
Uşaqlar bizlərə bənzəsin deyə
Gəlin uşaqlara oxşayaq bir az.

## ƏDƏBİYYAT SİYAHISI:

Kitablar:
Kiril qrafikası ilə:

Alay komandiri. – Bakı : Ozan, 1999. - 80 s.
Beş qitənin uşaqları. – Bakı : Gənclik, 1991. - 96 s.
Dağların yaddaşı. – Bakı : Azərnəşr, 1976. - 38 s.
İsti ocaq. – Bakı : Yazıçı, 1985. -143 s.
Qarabağ oyunu. – Bakı : Azərnəşr, 1993. - 48 s.
Mənə söz verin. – Bakı : Ozan, 2001. - 248 s.
Ömür gün qabaqdadır. – Bakı : Yazıçı, 1980. - 83 s.
Şəhid şəhər. – Bakı : Ozan, 1998. - 67 s.
Tumurcuqlar. – Bakı : Gənclik, 1985. - 28 s.

Latın qrafikası ilə

614-cü şəhid : şeirlər və poema. – Bakı : Şuşa, 2012. – 216 s.
Boğça.-Bakı : Ozan, 2007. -108 s.
Bulaq suyu. – Bakı : Şuşa, 2013.-80 s.
Dilotu. – Bakı : Ozan, 2009.-80 s.
Ətirşah ətri. – Bakı :  Ozan, 2010.-80 s.
Kəpənəklər oxumur : şeirlər. – Bakı : Şuşa, 2013. – 152 s.
Qadan mənə, Qarabağ : şeirlər, poemalar, mənzum pyes. – Bakı : Ozan, 2006. – 456 s.
Qürbətə düşən daş. – Bakı : Ozan, 2008. – 120 s.
Məhləmizin uşaqları. – Bakı : Şirvannəşr, 2004. - 80 s.
Məni yoldan eləmə.  – Bakı : Ozan, 2005. - 255 s.
Navalça. – Bakı : Şuşa nəşriyyatı, 2012. - 80 s.
Ürəyindən keçəydim : şeirlər. – Bakı : Ozan, 2010. – 248 s.

# Uşaq şairləri uşaq kimidir

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**